

# Azərbaycan bayrağı mütləq Şuşada dalğalanacaq

**Xalq artisti, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli bu sözləri böyük qürurla söylədi. Rektor inamla bildirdi kı, bu gün xalqımız öz tarixinin şanlı səhifələrini yazır. Biz azərbaycanlılar, neçə illər boyu davam edən ağrılı-acılı, faciəli hadisələrdən, ağır itkilərdən sonra öz doğma torpaqlarımızı qaytarırıq, bizim gözəl Vətənimizin, müstəqil Azərbaycanımızın ərazi bütövlüyünü bərpa edirik.**

Xalq artisti dedi ki, Azərbaycan Prezidenti İlham Əliyevin "Qarabağ Azərbaycandır!" sözləri bizim tariximizə qızıl hərflərlə həkk olunacaq. Çünki Azərbaycan xalqının Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında apardığı müharibə ədalətli müharibədir. Hərbi əməliyyatlar Azərbaycanın ərazisində aparılır və erməni təcavüzkarları tərəfindən işğal olunmuş qədim Azərbaycan torpaqlarının qaytarılması məqsədini daşıyır.

Silahlı qüvvələrimiz cəbhə xəttində cəsarətlə vuruşaraq bütün dünyaya Azərbaycan dövlətinin qüdrətini nümayiş etdirir. Doğma torpaqlarımızın bəzi əraziləri erməni işğalçılarından təmizlənib. Bu, həqiqətən bayramdır, bu, "göz yaşardan" qələbədir. Xüsusilə bizim üçün, musiqi ictimaiyyətinin nümayəndələri üçün. Bizim bir çoxumuz Qarabağ torpağının yetirmələriyik. 30 ilə yaxındır ki, biz əcdadlarımızın dəfn olunduğu yerlərə gedib, onların xatirəsini ana bilmirik, doğma torpağımızdan, sözün əsl mənasında, musiqi mədəniyyətimizin beşiyi sayılan Şuşadan uzaqdayıq. Axı məhz Şuşada Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün, Mir Möhsün Nəvvabın, Səməd bəy Mehmandarovun ev-muzeyləri yerləşirdi. Şuşa həm bizim kədərimiz, həm də bizim ağrımızdır.

Biz musiqiçilər, mədəniyyət və incəsənət xadimləri, ölkəmiz üçün bu çətin günlərdə ancaq bir şey arzulayırıq! Əlbəttə ki, bu, hər bir azərbaycanlının arzusudur: işğal edilmiş torpaqlarımızın azad olunması. Biz ürəkdən inanırıq ki, ədalət zəfər çalacaq, qələbə bayrağı Üzeyir bəyin musiqisinin sədaları altında Şuşada dalğalanacaq. Biz Şuşaya onun möhtəşəm ifaçılıq məktəbini qaytaracağıq. Biz bu müqəddəs torpaqda yaşayacaq, yaradacaq, əsərlər bəstələyəcək, ifa edəcək, gələcək nəsillərimizi yetişdirəcək, onun Azərbaycan musiqi istedadlarının "beşiyi" olduğunu bir daha sübut edəcək, haqqını bərpa edəcəyik.

"Böyük Qələbə gününü yaxınlaşdırmaq üçün əlimizdən gələni etmək bizim hər birimizin borcudur!"-- Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu sözləri Vətənimizin bütün vətəndaşlarına ünvanlanıb. Bizim hər birimiz öz qüvvəsi daxilində mübarizə aparmalıdır – axı mədəniyyət-informasiya cəbhəsi də mübariz ruh və müvafiq hazırlıq tələb edir.

Professor qeyd etdi ki, biz, musiqi mədəniyyəti və incəsənət xadimləri, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professor-müəllim heyəti Azərbaycan Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının ölkəmizin doğma torpaqlarını qaytarmaq əzmini dəstəkləyirik. Öz tərəfimizdən, informasiya cəbhəsindəki mübarizədə iştirak etməyi müqəddəs vəzifəmiz bilirik, həmçinin bütün dünyaya Ermənistanın işğalçılıq siyasəti, vəhşicəsinə dağıdılmış evlər, öldürülmüş dinc əhali, məhv olunmuş mədəniyyət abidələri haqqında məlumatı çatdırmağı özümüzə borc bilirik.

Bizim işimiz haqdır və qələbə bizim olacaq! Şanlı ordumuz Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin başçılığı ilə qələbə əzmi ilə irəli addımlayır. Bəli, təəssüf ki, itkilərimiz də var. Ürək ağrısı ilə biz qəhrəman əsgərlərimizin şəhid olmasından, dinc əhalinin atəşə məruz qalmasından danışırıq. Lakin Azərbaycanın vətənpərvər döyüşçülərinin qəhrəmanlığı əbəs deyil. İşğalçılar bizim qanuni ərazilərimizdən qovulacaq və biz, nəhayət ki, doğma ellərimizi görəcəyik, doğma torpaqlarımızı öpə biləcəyik.

**Hazırladı:**
**M.MÜKƏRRƏMOĞLU,**
**"Xalq qəzeti"**